



# Yaşa, ordumuz!

## Düşmənin səhra idarəetmə məntəqəsi göyə sovuruldu

### Ermənistan qoşunları ağır itkilər verib, ordumuz xeyli hərbi qənimət ələ keçirib

**Oktyabrın 2-də gecə və səhər saatlarında cəbhənin müxtəlif istiqamətlərində döyüş əməliyyatları davam etdirilib. Müdafiə Nazirliyinin məlumatına görə, Ağdərə istiqamətində qoşunlarımız Madagiz ətrafındakı hakim yüksəklikləri düşməndən azad ediblər. Həmçinin, Cəbrayıl-Füzuli istiqamətində qoşunlarımız düşmənin müqavimətini qıraraq geri çəkilməyə məcbur edib və irəliləməyə nail olub.**

Murov dağı istiqamətində də əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır. Gün boyu düşmənin 5 zirehli və avtomobil texnikası, 3 hərbi infrastruktur obyekti və xeyli sayda şəxsi heyəti məhv edilib. Əldə edilən digər məlumata əsasən, Ermənistandan işğal olunmuş ərazilərimizə gətirilən erməni könüllüləri döyüşlərin gərginliyi və itkilərinin çox olmasından qorxaraq müxtəlif bəhanələrlə döyüşdən imtina edirlər. Döyüşlərdə əldə etdiyimiz uğurlar və müxtəlif istiqamətlərdə hakim mövqelərin azad olunması Azərbaycan Ordusunun şəxsi heyəti arasında yüksək döyüş ruhu və qələbə əzmini daha da artırır. **General-mayor Hikmət Həsənov da deyib ki, hərbi birliyin şəxsi heyətinin amalı qələbəni təmin etmək naminə son damla qanımızadək vuruşmaq və düşməni darmadağın etməkdir.** General qeyd edib ki, bunun üçün əsgərlərimizin döyüş ruhu və qələbə əzmi kifayət qədər yüksəkdir.

**Ermənilərin təxribatı nəticəsində 175 yaşayış evinə, 41 mülki obyektə ziyan dəyib**

Azərbaycan Müdafiə Nazirliyinin Ermənistan tərəfinə yaşayış məntəqələrimizi atəşə tutmamaları barədə dəfələrlə xəbərdarlığına baxmayaraq, Ağdam rayonunun Xındırıstan, Əlibəyli, Əhmədağalı və Səfərli kəndləri düşmən tərəfindən intensiv artilleriya atəşinə tutulur. Müdafiə Nazirliyindən bildirilib ki, mülki əhali arasında ölən və yaralananlar var: "Məlumata əsasən, Ermənistanın Gorus rayonu ərazisindən Azərbaycan ərazilərinin raket atəşinə tutulması ehtimalı da var.

Bildiririk ki, tərəfimizdən adekvat cavab tədbirləri görüləcək".







Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, düşmənin silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 55 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib, 19 nəfər şəxs isə həlak olub. Bundan başqa, Ermənistan hərbi birləşmələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir. İşğalçı ölkənin silahlı qüvvələrinin mülki infrastruktur obyektləri atəşə tutması nəticəsində 175 yaşayış evinə, həmçinin, 41 mülki obyektə külli miqdarda ziyan vurulub. Eləcə də dinc sakinlərə məxsus nəqliyyat vasitələri yararsız vəziyyətə düşüb, çoxsaylı xırda və iribuynuzlu heyvanlar tələf olub.

**"Düşmən Ermənistan ərazisindən Şəmkirin Sabirkənd kəndini raket atəşinə tutur"**

Düşmən Ermənistan ərazisindən Şəmkirin Sabirkənd, işğal olunmuş ərazilərimizdən isə Ağdamın Quzanlı yaşayış məntəqələrini raket atəşinə tutub. Həmçinin gün boyu Bərdənin Əmirli, Soğanverdi, Tovuzun Ağdam və Ağdamın Quzanlı yaşayış məntəqələri artilleriya atəşinə məruz qalıb. Ermənistan silahlı qüvvələri Bərdə rayonunun Əmirli, Tovuz rayonunun Ağdam və Ağdam rayonunun Quzanlı yaşayış məntəqələrini də artilleriya atəşinə məruz qoyub.

MN-in məlumatına görə, Ermənistan ərazisindən Şəmkirin Sabirkənd yaşayış məntəqəsinə atılan 10-a yaxın raketlər "Toçka-U" taktiki raket kompleksindən buraxılıb.

**"Düşmən artıq cəbhəyə qadınları göndərir"**

**Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib ki, düşmən artıq cəbhəyə qadınları göndərir.** O bildirib ki, əldə olunan məlumatara əsasən, son günlər davam edən şiddətli döyüşlər nəticəsində xeyli itki verən düşmən ciddi şəkildə şəxsi heyət çatışmazlığı ilə üzləşir: "Buna səbəb çoxlu sayda itkilərlə yanaşı Ermənistan silahlı qüvvələrinin bir sıra ön xətt bölmələrinin şəxsi heyətinin demoralizə olunması, bir çox hərbi qulluqçunun isə ümumiyyətlə döyüşdən imtina etməsidir. İtkilərinin günü-gündən artması və ehtiyat qüvvələrinin az olması Ermənistan Müdafiə Nazirliyini ölkə qadınlarına müraciət etməyə vadar edib. Ermənistan Müdafiə Nazirliyi tərəfindən artıq qadın batalyonu yaradılıb və hazırda komplektləşdirilir".

**"Müddətli hərbi xidmətə çağırılanlar cəbhəyə deyil, təlim mərkəzlərinə göndərilir"**

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisinin birinci müavini, general-mayor Zaur Abdullayev bildirib ki, hazırda aparılan müddətli hərbi xidmətə çağırış qanunvericiliyə uyğun olaraq, hər il olduğu kimi, ildə 4 dəfə həyata keçirilən prosedurdur:** "Bu çağırışın hazırkı hərbi vəziyyətlə heç bir bağlılığı yoxdur. Həmişə olduğu kimi, 18 yaşı tamam olmuş və möhlət hüququ olmayan gənclər qanunvericiliyə uyğun olaraq Vətən qarşısında borclarını yerinə yetirmək üçün əsgəri xidmətə yola salınırlar. Gənc əsgərlər cəbhəyə deyil, müvafiq qoşun növlərinin hərbi hissələrinə - **təlim mərkəzlərinə göndərilir və qarşıdakı 3 ay müddətində onlarla orada təlimlər keçiriləcək, hərbinin sirləri öyrədiləcək, sonra xidmətlərini təyin olunduqları yerlərdə davam etdirəcəklər".**

**"On minlərlə vətəndaş döyüşlərdə iştirak etmək istədiyini bildirir"**

*General-mayor əlavə edib ki, qismən səfərbərliklə bağlı planda nəzərdə tutulandan daha çox, on minlərlə vətəndaş Xidmətin Aparatına və yerli struktur bölmələrinə müraciət edərək ərazi bütövlüyümüz uğrunda döyüşlərdə iştirak etmək istədiklərini bildirirlər:* "Vətəndaşların bu ruh yüksəkliyi və çoxsaylı müraciətlərinin nəticəsidir ki, proses uğurla həyata keçirilir və onlar təlimlərə cəlb edilirlər. Biz vətənpərvərlik nümayiş etdirərək döyüşlərə könüllü qatılmaq arzusunda olan çoxsaylı vətəndaşlara bir daha təşəkkür edirik".





**"Yenilməz erməni xətti" mifi dağıdıldı**

Dünən son məlumatlara görə düşmən ağır itkilər verib, ordumuz xeyli hərbi qənimət ələ keçirib. Azərbaycan Müdafiə Nazirliyi düşmənin səhra idarəetmə məntəqəsi, üzərindəki Ermənistan bayrağı və qondarma rejimin asılan əski parçasının göyə sovrulması, eləcə də tanklarının məhv edilməsinin görüntülərini yayıb.

Azərbaycan Ordusunun əkshücumu qarşısında tap gətirməyən erməni silahlı birləşməsinin əsgərləri nəinki zəbt etdikləri əraziləri, silah-sursatlarını da qoyub qaçırlar. Növbəti əkshəmlələrdən birində Azərbaycan əsgərləri xeyli hərbi qənimət ələ keçiriblər.

Bundan başqa düşmən canlı qüvvə və döyüş texnikası sarıdan ağır itkilər verib.

**İsmayıl**